# GENDER BƏRABƏRLİYİ VƏ QADIN TƏŞƏBBÜSLƏRİ İCTİMAİ BİRLİYİ

## Biz kimik?

Gender Bərabərliyi və Qadın Təşəbbüsləri İctimai Birliyi (GBQT İB) 14 iyul 2007-ci il tarixdə gender və qadın hüquqları sahəsində təcrübəyə malik bir qrup fəal qadın tərəfindən təsis edilmişdir. Təşkilat 16 noyabr 2007-ci il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nzirliyi tərəfindən rəsmi dövlət qeydiyyatından keçmişdir.

## Missiyamız

**Gender bərabərliyi və qadın hüquqlarının həm siyasət səviyyəsində və həm də praktikada təmin olunması sahəsində birgə əməkdaşlıq təşəbbüsləri yolu ilə fəaliyyət göstərməklə, Azərbaycanda demokratiyanın inkişafına dəstək verməkdir.**

*GBQT İB missiyasına çatmaq üçün gender bərabərliyi və qadın hüquqları üzrə lobbiçilik fəaliyyəti göstərir, qadın hüquqlarını müdafiə edir, qadınların ictimai həyatda rolunun gücləndirilməsinə çalışır, qadınların siyasi iştirak və təmsilçiliyinin artırılmasına yardım edir, ölkədə gender bərabərliyi və qadın hüquqlarının vəziyyəti barədə monitorinqlər keçirir və hesabatlar hazırlayır, qadınların sosial və iqtisadi problemlərini araşdırır, qadınlar arasında maarifləndirmə işi aparır və regionlarda qadın QHT-lərin fəaliyyətinə dəstək verir.*

## Gender Bərabərliyi və Qadın Təşəbbüsləri İctimai Birliyinin (GBQT İB) 2009-2010-cu illərdə olan fəaliyyəti əsasən aşağıdakı istiqamətləri əhatə edir

**1. Gender bərabərliyi və qadın hüquqları sahəsində davamlı monitorinqlərin aparılması və nəticələr üzrə ictimai vəkillik işinin həyata keçirilməsi.**

- "Qadınlara Qarşı Ayrı-Seçkiliyin Bütün Növ Formalarının Ləğv Edilməsi Haqqında" BMT Konvensiyasının Azərbaycanda həyata keçirilməsinin Monitorinqi və Alternativ Hesabatın CEDAW Komitəsinə təqdimatı;
- Siyasətdə və Dövlət Əhəmiyyətli Qərarların Verilməsində Qadın və Kişilərin Balanslaşdırılmış İştirakına Dair Avropa Şurasının Nazirlər Komitəsinin üzv dövlətlərə verdiyi tövsiyələrinin Rec (2003)3 Azərbaycan Respublikasında yerinə yetirilmə-sinin Monitorinqi və nəticələr haqqında hesabatın hazırlanması;
- Qadın hüquqlarının ictimai vəkillik siyasətinin milli gender mexanizminin Monitorinqi və hesabatın

**2. İctimai vəkillik sahəsində fəaliyyət.**
Həm yerli, həm də regional səviyyədə həyata keçirilən işlər.

- GBQT İB-nin üzv olduğu və 24 ölkəni özündə birləşdirən Beynəlxalq Gender Siyasəti Şəbəkəsinin (İGPN) həyata keçirdiyi "İnkişaf üzrə Əməkdaşlıq və Gender" layihəsi çərçivəsində "Avropa Komissiyasının Azərbaycanla İnkişaf üzrə Əməkdaşlığında Gender Bərabərliyi və Qadınların Səlahiyyətləndirilməsi məsələsinin əks olunması" mövzusu üzrə İctimai Vəkillik Kağızı.

Bu ictimai vəkillik işi çərçivəsində Avropa Kommissiyasının İnkişaf üzrə əməkdaşlığında AK-nın hər bir tərəfdaş ölkə üzrə hazırladığı Ölkə üzrə Strategiya sənədi gender bərabərliyi və qadın hüquqlarının burada nə dərəcədə əhatə olunduğu təhlil edilmiş və bunun əsasında Avropa Birliyinə, Milli Dövlət qurumlarına və vətəndaş cəmiyyəti təşkilatlarına tövsiyələr hazırlanmışdır. Burada məqsəd Ölkə üzrə Strategiya sənədinin 2009-cu ildə AK tərəfindən nəzərdən keçirilməsi zamanı gender

- GBQT İB və Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən İnsan Hüquqları üzrə Vəkillər (AHR) təşkilatı ilə birlikdə "Məişət Zorakılığının Qarşısının Alınması" haqqında qanun layihəsi üzərində təhlil aparılmış, rəy və təkliflər hazırlanaraq Milli Məclisə və Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinə təqdim edilmişdir.

### 3. Gender və Qadın Hüquqları üzrə ictimai maarifləndirmə.

- Regionlarda qadın təşəbbüsünün inkişafı. "İctimai Aktiv Liderlik" mövzusunda Kürdəmir, Neftçala və Lənkəran rayonlarında qadınlar üçün təlimlər keçirilmişdir. Sonradan təlimdə iştirak edən qadınların özlərinin təşəbbüsü ilə həmin rayonlarda konfranslar keçirilmişdir.





*Şəkillərdə: İctimai Aktiv Liderlik mövzusunda təlimlər.*

- Təlim iştirakçılarının ehtiyaclarını nəzərə alaraq, regionlarda qadınlarla aşağıdakı mövzularda ekspert görüşləri keçirilmişdir.

1. Məişət zorakılığı və onu yaradan əsas səbəblər; 2. Uğur qazanmış qadın iş adamı ilə görüş;
3. Gender bərabərliyi və qadın hüquqlarının əsasları. Sərəncamlar, qanunlar və konvensiyalar;
4. Liderliyin formalaşmasında psixoloji amillər.






*Şəkillərdə: Rayonlarda ekspert görüşləri*

- GBQT İB PRAXİS Sosial İnkişafa Dəstək İB-nin əməkdaşlığı və Equitas Beynəlxalq İnsan Hüquqları Təhsili Mərkəzinin dəstəyi ilə "Məcburi Köçkün Qadınlarla İşləyən Təlimçilər üçün 4 günlük təlim keçirmişdir."

Təlimin məqsədi məcburi köçkün qadınlarla işləyən QHT təlimçilərinin insan hüquqları ilə bağlı daha effektli təlim proqramının hazırlanması və çatdırılmasında bacarıqlarının artırılması idi.






*Şəkillərdə: Məcburi Köçkün qadınlarla işləyən təlimçilər üçün 4 günlük TOT təlim.*

## 4. Nəşrlər və çap olunmuş materiallar.

- *Hesabatlar*



Qadınlara Qarşı Ayrı-Seçkiliyin Bütün Növ Formalarının Ləğv Edilməsi haqqında (CEDAW) BMT Konvensiyasının həyata keçirilməsinin monitorinqi aparılmış və Alternativ Hesabat hazırlanmışdır. Monitorinq UNİFEM və Avropa Şurasının gender bərabərliyi üzrə Komissiyası tərəfindən yaradılan və monitorinq layihələri üçün nəzərdə tutulan "CEDAW-nun qiymətləndirilməsi aləti" adlanan xüsusi alətdən istifadə edilmişdir. Monitorinq zamanı Azərbaycan hökumətinin BMT-nin CEDAW Komitəsinə təqdim etdiyi əvvəlki hesabatda irad tutulan problemlər əsas götürülmüşdür. Hazırlanmış Hesabat BMT-nin CEDAW Komitəsinə, digər yerli və beynəlxalq qurumlara və ictimaiyyətə təqdim edilmişdir.



Siyasətdə və Dövlət Əhəmiyyətli Qərarların Verilməsində Qadın və Kişilərin Balanslaşdırılmış İştirakına Dair Avropa Şurası Nazirlər Komitəsinin tövsiyələrinin Res 2003 (3) Azərbaycanda yerinə yetirilməsinin monitorinqi həyata keçirilmiş və hesabat hazırlanmışdır. Bu tövsiyənin səmərəli həyata keçirilməsini, qadınların siyasi sosiallaşmasını, ictimai müzakirələri genişləndirməyi və imkanları təbliğ etməyi əsas tutaraq GBQT İB bu monitorinqi aparmş və hesabat hazırlamışdır. Hazırlanmış Hesabat aidiyyatı yerli və beynəlxalq qurumlara və ictimaiyyətə təqdim edilmişdir.

- *Təlim modulları*



GBQT İB "Məcburi Köçkün Qadınlarla İşləyən Təlimçilər üçün Təlim" layihəsində həyata keçirdiyi 4 günlük təlimdə iştirak edən iştirakçılar üçün "İnsan Hüquqları Təlimlərinin Effektli Təşkili və Çatdırılması" adlı təlim vəsaitini hazırlamışdır. Bu təlim vəsaiti Beynəlxalq İnsan Hüquqları Təlim Proqramına (İHRTP) əsasən hazırlanmışdır. Hazırlanan təlim vəsaiti İnsan Hüquqları Təlimçiləri üçün faydalı bir əyani vəsaitdir.

- *Bülletenlər*



GBQT İB "Məişət Zorakılığı və onu yaradan əsas səbəblər", "Qadın Sahibkarlığı və məşğulluğu: Problemlər və imkanlar", "Gender Bərabərliyi və Qadın Hüquqlarının əsasları: Sərəncamlar, Qanunlar və Konvensiyalar", "Liderliyin formalaşmasında psixoloji amillər" mövzuları üzrə rüblük Bülletenlər hazırlayaraq rayonlarda qadınlar arasında paylamışdır.

## 5. Yerli və Beynəlxalq əməkdaşlıq.

GBQT İB öz fəaliyyətini həyata keçirmək üçün bir sıra yerli hökumət, o cümlədən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli və beynəlxalq qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşlıq edir.

GBQT İB 24 ölkənin üzv olduğu Beynəlxalq Gender Siyasəti Şəbəkəsinin (IGPN) üzvüdür.

## 6. GBQT İB-nin idarə olunması

***Birliyin İdarə Heyəti:***

Birliyin ali idarəetmə orqanıdır;
İdarə Heyətinin iclasları ayda 2 dəfədən az olmayaraq keçirilir.

***Birliyin İcraçı Direktoru***

Təşkilatı təmsil edir, onun adından müqavilələr bağlayır;
Birliyin cari işlərini təşkil edir;
İdarə Heyətinin qərarlarının yerinə yetirilməsini təmin edir.